| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 12.09.2018 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 386 |
| **ADI** | Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının tərkibi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Xalq Qəzeti (Dərc olunma tarixi: 13-09-2018, Nəşr Nömrəsi: 204), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-09-2018, Nəşr nömrəsi: 09, Maddə nömrəsi: 1914) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 13.09.2018 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 010.180.020<br>210.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 14201809120386 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 14.09.2018 |

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının tərkibi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 5.10-cu bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiya üzvlərinin sayı 9 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının mədəniyyət naziri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavinləri
Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri
Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Aparatının rəhbəri
Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi
Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi
*Azərbaycan Respublikası Kino Agentliyinin Baş direktoru.*[1]

2. "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 iyun tarixli 146 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 6, maddə 574; 2007, 11, maddə 1180; 2008, 7, maddə 691; 2011, 12, maddə 1254; 2014, 10, maddə 1327; 2015, 4, maddə 455, 6, maddə 798, 10, maddə 1247; 2016, 6, maddə 1191) 1-ci və 2-ci hissələri ləğv edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 12 sentyabr 2018-ci il
386

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 27 yanvar 2023-cü il tarixli **26** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 28 yanvar 2023-cü il, "Xalq" qəzeti, 31 yanvar 2023-cü il, 21)**

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 27 yanvar 2023-cü il tarixli **26** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 28 yanvar 2023-cü il, "Xalq" qəzeti, 31 yanvar 2023-cü il, 21)** ilə 1-ci hissənin "Kollegiyanın üzvləri:" bölməsində "**M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru**." sözləri "**Azərbaycan Respublikası Kino Agentliyinin Baş direktoru.**" sözləri ilə əvəz edilmişdir.